# Mingəçevir Dövlət Universitetinin
# Antiplagiat yoxlama qaydaları
# (Antiplagiat Normativ Hüquqi Aktları)

## § 1

## Hüquqi əsaslar

1. Antiplagiat yoxlama proseduru Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 iyun 2019-cu il tarixli Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnaməsinə əsasən bütün yazılı işlərin, o cümlədən, kurs işləri, diplom işləri, magistr dissertasiyaları, elmlər doktoru dissertasiyaları, fəlsəfə doktoru dissertasiyaları və s. yoxlanışını nəzərdə tutur (Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmişdir).
2. Yoxlamanın müsbət nəticəsi imtahana (müdafiəyə) buraxılma üçün zəruri şərtdir.
3. Antiplagiat yoxlamanın normativləri Universitet və ya onun bölmələrində (fakültələr, kafedralar) Strikeplagiarism.com İnternet Sisteminin əsasında Antiplagiat yoxlamanın prosedur və qaydalarının fəaliyyətini təyin edir.

§ 2

## İşlərin yüklənməsi proseduru

## (Model 1 – İstifadəçi hesabları antiplagiat sistemində yaradılır)

1. Müəlliflərin (tələbələrin), müəllim və/və ya fakültələrdə (kafedralarda) operatorların istifadəçi hesabları akademik il başladıqdan sonra bir ay ərzində sistem Administratoru tərəfindən yaradılır.
2. Administrator istifadəçi hesabları arasında yoxlamaların paylanmasına cavabdehdir. Təkrar yoxlama olduqda, həmçinin, Administratora müraciət etmək lazımdır.
3. Hər müəllif işi Strikeplagiarism.com sisteminə müstəqil olaraq yükləməlidir.
4. İş sistemə DOC və DOCS formatında yüklənməlidir. **İşin digər formatlarda yüklənməsi qəti qadağandır. Bu qaydanın pozuntusu universitetin akademik etikasının pozuntusuna bərabərdir.**
5. Diplom kvalifikasiya işlərinin (bakalavr və magistr) yüklənməsi müdafiədən 30 gün öncə həyata keçirilməlidir. Digər növ işlər olduqda isə əlavə sərəncam əsasında yüklənilir.
6. Buraxılış işlərinin plagiata dair qiymətləndirilməsi **müdafiədən 10 gün öncə sona çatmalıdır**.
7. Qəbul olunmuş son tarix (dedlayn) pozuntusu olduqda iş elmi rəhbər (ekspert) tərəfindən qiymətləndirməyə qəbul edilə bilməz. İşin qəbul olunması universitetin etika məcəlləsinin pozuntusu kimi qəbul olunacaq.
8. İstifadəçilər Strikeplagiarism.com tərəfindən elektron poçt ünvanlarına göndərilən bildirişdən sonra 24 saat ərzində istifadəçi hesablarına daxil olub aktivləşdirməlidir.
9. Müəllimlər Oxşarlıq hesabatına rəylər əlavə edərək müəllifə kiçik texniki səhvləri düzətlməkdə hərtəfərli yardım etməlidirlər.
10. Tələbə Oxşarlıq hesabatı, elmi rəhbər (ekspert) tərəfindən əlavə edilmiş rəylərin siyahısı və bununla da, elmi rəhbərin (ekspertin) qiymətləndirmə protokolunda əks olunan qərar ilə tanış olmaq imkanı əldə edir.
11. Sistem Oxşarlıq hesabatını sistem tərəfindən təhlil sona çatandan sonra dərhal Qiymətləndirən şəxsin (elmi rəhbər və komissiya üzvlərinin) email ünvanına göndərir.
12. Tələbəyə 1 düzəliş cəhdi verilir, bununla da işi yoxlamaya yükləmək üçün 2 fürsət verilir.
13. İşdə düzəliş olunandan sonra onu təkrar yoxlama üçün Strikeplagiarism.com sisteminə yükləmək lazımdır. Müəllifə düzəlişlər üçün iki iş günü verilir.
14. Ekspert və ya elmi rəhbərə işin təhlili, rəylərin əlavə olunması və qərarın qəbul edilməsi üçün 5 iş günü verilir.

15. Üç qərar verilə bilər: **1. İşi qəbul etmək, 2. Düzəliş üçün geri qaytarmaq, 3. Diskvalifikasiya etmək.**
16. StrikePlagiarism.com sistemində hər bir variantı seçdikdə Ekspert və ya elmi rəhbər xüsusi xanada öz qərarını əsaslandırmalıdır.
17. Bu əsaslandırma sistemdə hər iş üçün olan Qiymətləndirmə protokolunda əks olunacaq və sistem vasitəsi ilə Oxşarlıq hesabatı ilə birgə sənədi yükləyən istifadəçinin (müəllifin) elektron ünvanına göndəriləcək.
18. **“Qəbul et və yekunlaşdır”** düyməsini basdıqdan və iş qəbul olunduqdan sonra sistem müstəqil olaraq onu məlumatlar bazasına əlavə edir. Bununla yoxlama prosesi sona çatır.
19. Qiymətləndirmə protokollarını çap etmək lazım deyil, onlar Strikeplagiarism.com sistemində saxlanılır, protokolların məzmununu dəyişmək mümkün deyil.

**(Model 2- İstifadəçi hesabları LMS-də yaradılır – təhsil mühitinin idarəetmə sistemi.)**

1. İstifadəçi hesabları Administrator tərəfindən LMS-də yaradıldığı halda işlərin plagiata dair yoxlanılması üçün bütün yüklənmələri LMS istifadəçi hesablarında həyata keçirilir.
2. Müəllif öz işlərini müəllim və ya ekspert tərəfindən formalaşdırılmış tapşırığa uyğun olaraq və yuxarıda qeyd olunan vaxt çərçivəsində LMS istifadəçi hesabına yükləməlidir.
3. İşlərin yoxlanılması və düzəlişi yuxarıda qeyd olunan vaxt çərçivəsində həyata keçirilməlidir.

**Qeyd: Sistem Operatoru işin plagiat qiymətləndirilməsini həyata keçirməyə hüququ yoxdur!**

§ 3

## İşlərin plagiata dair qiymətləndirilmə metodologiyası:

Elmi işlər üçün, o cümlədən məqalə, dissertasiyalar, monoqrafiyalar və s. üçün Təhsil Nazirliyinin normativ sənədləri bunu tələb etmədiyi halda oxşarlıq əmsalının hədd dəyəri tətbiq edilməməlidir.

## Elmi işlərin plagiata dair qiymətləndirmə meyarları:

1. Plagiatın olmaması – hər hansı bir müəllifdən alınmış hər bir mətn fraqmenti üçün müəllifə **istinad** verilməlidir və biblioqrafiyada əks olunmalıdır.

2. Özünü plagiatın olmaması – daha əvvəl dərc olunmuş öz işindən götürülmüş hər bir mətn fraqmentinə müəllifə **istinad** verilməlidir və biblioqrafiyada əks olunmalıdır.

3. Məqalə və nəşrlər üçün hədd dəyəri OƏ1 üçün 20% və OƏ2 üçün 5% dərəcəsində **tövsiyyə** xarakteri daşımalıdır.

4. Mətndə manipulyasiyaların olmaması – mətndə plagiatı (fırıldaqçılığı) gizlətmək məqsədi ilə məqsədyönlü manipulyasiyalar olunduğu halda ekspert (elmi rəhbər) qanunvericilik və universitetin daxili prosedurları çərçivəsində müvafiq tədbirlərin görülməsi üçün ali təhsil müəssisənin rəhbərliyinə bu haqda məlumat verməlidir. Rəhbərliyə bu növ faktlar haqqında məlumatın verilməməsi fırıdaqçılığın məqsədyönlü şəkildə gizlədilməsi kimi qəbul olunacaq! Sistemin mümkün texniki nasazlıqları səbəbindən hər manipulyasiya halı dəqiq təhlil olunmalıdır,

antiplagiat sisteminin provayderi fırıldaqçılıq faktını təsdiq etmədiyi halda müəllif fırıldaqçılıqda günahlandırıla bilməz.

- Ekspert və elmi rəhbər mətn fraqmentlərini özünü sitat kimi qəbul edə bilməzlər (məqalələr istisna olmaqla) və, bununla da elmi işlərdə OƏ1 və OƏ2 (oxşarlıq səviyyəsi) Yeni dəyərini dəyişə bilməz!

- Oxşarlıq səviyyəsinin nə qədər olmasından asılı olmayaraq, o işdə plagiatın olmasını **göstərmir**! Bununla ekspert (elmi rəhbər) aşkar olunmuş **hər** mənbənin **istinadının** olmasını və **biblioqrafiyada** əks olunub-olmamasını dəqiq yoxlamalıdır.

Tələbə işlərinin qiymətləndirilməsi elmi işlərin qiymətləndirilməsindən fərqlənir.

**Tələbə işlərinin plagiata dair qiymətləndirmə meyarları:**

1. Plagiatın olmaması – hər hansı bir müəllifdən alınmış hər bir mətn fraqmenti üçün müəllifə **istinad** verilməlidir və biblioqrafiyada əks olunmalıdır.

2. Özünü plagiatın olmaması – daha əvvəl dərc olunmuş öz işindən götürülmüş hər bir mətn fraqmentinə müəllifə **istinad** verilməlidir və biblioqrafiyada əks olunmalıdır.

3. Ekspert (elmi rəhbər) magistr işini plagiata dair təhlil edərkən Oxşarlıq hesabatındakı özünü sitatları müvafiq seçimi seçərək qəbul etməlidir. Fraqmentləri özünü sitat kimi qəbul edərkən, tələbənin mətnindəki hər alınmış fraqmentin daha əvvəl dərc olunmuş məqaləyə istinad kimi verilməsində və biblioqrafiyada əks olunmasında əmin olmaq lazımdır! Özünü sitatın qəbul olunması istinadın verilməsi zəruriyyətindən azad etmir!

4. Ekspert (elmi rəhbər) qanunlardan olan fraqmentləri, metodoloji təsvirlər və sitat olmayan digər mətn uyğunluqlarını qəbul edə bilməz. Belə fraqmentlərin özünü sitat kimi qəbul olunması akademik etika və qanunvericilik pozuntusu kimi şərh ediləcək.

5. Mətndə manipulyasiyaların olmaması – mətndə plagiatı (fırıldaqçılığı) gizlətmək məqsədi ilə məqsədyönlü manipulyasiyalar olunduğu halda ekspert (elmi rəhbər) qanunvericilik və universitetin daxili prosedurları çərçivəsində müvafiq tədbirlərin görülməsi üçün ali təhsil müəssisənin rəhbərliyinə bu haqda məlumat verməlidir. Rəhbərliyə bu növ faktlar haqqında məlumatın verilməməsi fırıdaqçılığın məqsədyönlü şəkildə gizlədilməsi kimi qəbul olunacaq! Sistemin mümkün texniki nasazlıqları səbəbindən hər manipulyasiya halı dəqiq təhlil olunmalıdır, antiplagiat sisteminin provayderi fırıldaqçılıq faktını təsdiq etmədiyi halda müəllif fırıldaqçılıqda günahlandırıla bilməz

6. Beynəlxalq təcrübəyə uyğun olaraq OƏ1 (yeni dəyər) göstəricilərinin 40 % keçməməsi.

7. Beynəlxalq təcrübəyə uyğun olaraq OƏ2 (yeni dəyər) 5% keçməməsi (hüquq elmləri üçün OƏ2 hədd dəyəri 10 % təşkil edir) (yeni dəyər).

8. Hər alınmış fraqment parafraz olunmalıdır. Qanunvericilik aktları, folklor, metodoloji təsvir və müəllif işi hesab oluna bilinməyən digər mətn fraqmentləri parafraz zəruriyyətindən azad edilir. Bu fraqmentlər mümkün oxşarlıq səviyyəsinə daxil olmalıdır (40% OƏ1 və 5% (10%) OƏ2).

Müəllifə kiçik texniki səhvlərin düzəlişində yardım etmək üçün və aşağıdakı variantlardan birini seçmək üçün Elmi rəhbərə (ekspertə) Oxşarlıq hesabatına rəy əlavə etmək imkanı verilir:

1. **Diskvalifikasiya etmək**
2. **Qəbul etmək və yekunlaşdırmaq**
3. **Düzəliş üçün geri qaytarmaq**

- «İş diskvalifikasiya olunub», seçdikdə elmi rəhbər (ekspert) işi 1-8 bəndlərdə qeyd olunmuş şərtlərin pozutunsu səbəbindən qəbul etmir. Bu halda iş «Diskvalifikasiya olunub» statusuna keçir və məlumatlar bazasına əlavə edilmir.

- İş düzəliş üçün geri qaytarıla bilər. Bu halda iş «Düzəliş üçün geri qaytarılıb» statusuna keçir və məlumatlar bazasına əlavə edilmir. Tələbəyə düzəliş və işin təkrar yüklənməsi üçün 2 iş günü verilir.

- «Qəbul et və yekunlaşdır» seçimi edildikdə plagiat yoxlaması yekunlaşır və iş avtomatik olaraq məlumatlar bazasına əlavə edilir.

Hər halda sistem sənədi yükləyən istifadəçiyə elektron məktub vasitəsilə bildiriş, Oxşarlıq hesabatına keçid və elmi rəhbər və ekspert tərəfindən əlavə edilmiş rəylər ilə tanış olmaq üçün qiymətləndirmə protokolunu göndərir.

Qiymətləndirmə protokolu avtomatik olaraq sistem tərəfindən yuxarıda qeyd olunmuş bəndlər seçildikdən sonra doldurulur. Onun doldurulması zəruri deyil.

İşin kafedrada (dekanlıqda) arxivləşdirilməsi halında işə PDF formatında qısa Oxşarlıq hesabatı və qiymətləndirmə protokolu əlavə edilir.

§4

**Apellyasiya**

1. Qərarın nəticəsi ilə razılaşmadıqda iş üzrə qərarın bəyan olunmasından iki iş gün ərzində Rektora apellyasiya müraciəti təqdim etmək hüququ verilir. Apellyasiya təqdim etmək çərçivəsi təmin edilmədikdə, həmçinin apellyasiya forması düzgün doldurulmadıqda rəsmi səbəblər baxımından rədd edilə bilər.

2. Rektor alınmış sənədlər və zərurət yaranarsa, şəxsi təhlil əsasında yekun qərarı qəbul edir. Rektor iş üzrə qərarı, işin müdafiəyə buraxılması, tamamlama işlərinin lazım olması, plagiatın mövcudluğu və intizam tədbirlərin görülməsi zəruriyyəti haqqında qərarı apellyasiya verildikdən 10 iş günü ərzində verir.

3. Apellyasiya müraciəti yalnız bir dəfə verilə bilər.

4. İntizam prosedurlarına aid olan bütün şərtlər Ali Təhsil Müəssisəsi tərəfindən qanunvericilik və Universitetin daxili prosedurlarına uyğun olaraq həyata keçirilir.

**Əlavə 1**

**Qiymətləndirmə protokolu**

**Strikeplagiarism.com İnternet-Sisteminin tam Oxşarlıq Hesabatının nəticələri ilə tanış olduğumu təsdiqləyirəm:**

Müəllif: ……………………………………………………………........……………………………

Həmmüəllif: ……………………………………………………….……………………………………

İxtisas: ………………………………………………………………………………………….........

İşin növü: ……………………………………………………………………………………….....

İşin adı: ……………………………………………………………………………….............

Elmi rəhbər: …………………………………………………………………………………………

Oxşalır Əmsalı 1: ........................ Oxşarlıq Əmsalı 2: .................... Sitat Əmsalı: ........................

Digər əlifbalardan işarələr: .......... Mikroboşluqlar: ......... İntervallar: .......... Ağ işarələr: .............

Oxşalırq Hesabatının yoxlamasından sonra aşağıdakı qərar verilib:

o İşdə aşkar edilmiş alınmalar qanunidir və plagiat hesab olunumur. Oxşarlıq səviyyəsi mümkün həddi keçmir. Beləliklə iş müstəqildir və imtahana buraxılır.
o Alınma plagiat deyil, yalnız oxşarlıq səviyyəsinin hədd dəyəri aşılıb. Beləliklə, iş redaktə üçün geri qaytarılır.
o İşin qanunvericilik, etika məcəlləsi və proseduarlın tələblərinə zidd olmasına gətirib çıxaran alınmalar və plagiat, və ya plagiatın gizlədilməsi cəhdləri olaraq bilərəkdən mətn təhrifi (manipulyasiyalar) aşkar olunub. Beləliklə iş imtahana buraxılmır.

**Əsaslandırma** ..................................................................................................................................

…………………………………………………………………………………….....................

…………………………………………………………………………………….....................

…………………………………………………………………………………….....................

Ekspertin adı və soyadı (elmi dərəcəsi və adı, vəzifəsi) ........................................................................

.........................................................................................................................................................

.........................................................................................................................................................

Ekspertin imzası ........................................ Tarix: ..............................